■ Kamran İmranoğlu
(Şirvan)

- Əmi, əhiyadı ol! Birdən sürüşüb yıxılarsan!

- Gal, əmi, gal! Hər şey yaxşı olacaq. Bizdən narazı qalmayacaqsan?

- Əmi, başına dönüm, san neca de manim atama cəsayətsən. Vallah, deyasan, bir-birimizdən xəbərimiz yoxdur.

Bu sözləri anq, ucaboy, bir az da omuzları əyilmiş qocanı çox böyük maraqla müşayiət edən İsabel sözə qoşulur yindilər. Qoca da qulaqta tam laəlim olmuş şəklində və ortanın ahəstəsinə səslənən uşağa əğir addımlarla irəliləyirdi. Bu, kanardan dişqalte boxan adamlar üçün qutanan sakitduzaq əqamının mücəssəmi yaradılıb. Ham de fikirləri bir-birinə dolaşmış qəlzə qışın son ayı oldığına göre qocanın qəlbi dan sülüşməsinden ehtiyat edirdilər. Iştişaşyad belə bir hadisə baş versəydi, qoca sinlar, buraya gələn kasib-kusuba verərdi. Hərə ikihəftə gizlin dedi-qodusunda na gizlin; bu vəxtəndən qayxanada iştayan cavan xidmətçilər da yeyirdilər. Indi qutardan biri deyanda ki, "san pul da alacaqsan", onda qocanın sevinməyi bir tərəfə qalsın, gözləri bir az da dəmarlanıdı. Qoca bir anda arvadının ölümünü xatırladı.

Kollecin qabağında qatdar. Dürzi, parkdan kollecə qədər olan məsafə o qədər da çox deyildi. Saata baxsan, camisi 5-ə dəqiqcik yıxılır. Amma qıy oldığına göre bu yolı xeyli vaxt sarf etdilər. Evdəxa uzatardan biri, sonra qoca, daha sonra lei-gər qoğa əvəzə ilə şərəyə daxil oldular. Onlan qapının ağzında dimdik dayanan tasərrüfat müdiri qarşıladı. Tasərrüfat müdiri içəriyə daxil olan qazara qatıyan İlkir vermədan nazarlarını qocaya dikdi ve qocanı yaxınlaşmağa əşqlə, ham de dişqalte dan yuxan dişqalte sözlər özünəməxsus qalın səslə dedi:

- Bu kişini haradansa tanıyram.

Sonra da qocanın dizə gözlərinin içinə baxıb soruşdu:

- Baydadısa, hansı rayondansan?

Qocanın cavabı bu oldu:

- Hmmm!

Qoclar çaş-baş qaldılar. Vaziyyətin qələtləşəcəyinden bir az da qonxuda dişqalte. Qocanın qolundan tutub irəli getmək istəyirdilər ki, tasərrüfat müdiri yene soruşdu:

- Kassir deyir ki, narahat olmasınlar, qalb pulunu ödəyəcəyəm.

Qoclar qoca ile birlikde gəniş bir otaqa daxil oldular. Burə rassam telebələrin tacrübə otağı idi.

Qoclar kollecin axırıncı kursunda oxuyurdular. Kollecə qutarmaq üçün her telebe diplom işi yerine yetirmeli idi. Qoclara da bir qocanı natıqandan çəkmək mövzusu yeritmişdi. Amma mövzular qəliyyen istə dişqəmıdı. Onlardan birri qocanı padıla, yani qıy qeyminda, ikincisi pencək, yani yazı ve yaxınd pavz geyminda, üçüncüsü köynəkda, yani yay geyminda göndərməsi ile çıpaq çəkmali idi.

Qoclar qocanı helalik dilenmek ustalıqlar. Yolda söz verdiləri kimi yay hazırlıqa başladılar. Onlar yay qeyminə hazırlıqa qamtarısını açıb qocanın oturduğu divanın qarşısindeki mizin üstünü gəltılıq yatıs doldurdular. Çəkişdilər ki, qocanı rahatlığın temin etsinlər ve qoca ordanlar razı qalsın. Amma qoca hela da paltosunu soyunmamıdı ve qutar da burnu tıkıd etmişdi. Onsuz da birləşdilər ki, tacrübə otağı hamişə istı olur ve qocanın da gec-tez paltosunu soyunacağına emin idilar.

Ela bela da oldu. Qoclar gay gəltında qoca ayağa qalıb paltosunu çıxardı ve qutardan biri onun paltosunu alıb salıge ila divanın bir küncünə qoydu. Bu zamat qocların etmi rahatları olan müəllim da tacrübə otağına daxil oldu. Əsləndə, hazırlıq işi qurtarandan sonra qoclardan biri gedib müəllimi çağırasıydı. Amma müəllimin çalışma da tasadfi kimi bazmaq olmaz. Görünür, ya tasərrüfat müdiri demiş, ya da kollecə yeylan sas-sodadan xəbər tutmuşdu. Qoclardan hey biri cəsarət edib bunu ondan sorşmağıdılar. Olsa söz-sohbata ehtiyac da yox idi. Əksə mesaba bu idi ki, axtarılan qoca tapılmış, qoclar da diplom işlərini qurtarıb başa çatdırdı kollec qurtara bilərlər.

Müəllim bir an ayaq saxlayıb diqqətlə baxıd ve sonra da qoclara tərəf yeridi dedi:

- Atanın, oğlum! Mənalarım 80 fazınıı hal etmisiniz.

Sonra yene qocaya tərəf dendi:

- A kişi, san haralısan!

- Hmmm!

- San mani görmüsən?

- Hmmm!

Tasərrüfat müdirinin dediyini müəllim da dedi:

- A bala, bu ki laldır. Onunla ne telə yola gedacəksiniz.

Qoclardan bin gözlanılmadan cavab verdi:

- Müəllim, ela bizə bela adam lazımdır. Yoxsa kəçən ilin uşaqları birinci tapğı qotmişdılar, o da dil boğaza qoymayıb uşaqların çalıbıdı tökündü.

Bir az fasilə yarandı. Sonra müəllim sağ əyağının ucunu qocanın oturacağı divanın qarşısında yere dəyəcəyəydi dedi:

- Bax, bu yer esas yerdir. Nöbtə ile burada dayanıb öz işinizi görəcəksiniz. Haranız üçün 15-20 dəqiqə bəsdir. Gələnə sinan apanb evdə işləyəcəyəm. Kanar tərəfə durantar da özləri üçün çəkəsələr yaxşı olar. Yani bu, bir-birinizə köməkdir.

Müəllim yene qocaya tərəf dönüb "sağ ol" mənasında sağ əlini yuxarı qaldırıb haraksat edərəkdə ve tacrübə otağından çıxdı. Qoca da ela bil rahat nefəs aldı, çünki o, hər gün oturduğu çayxanada gördüyü müəllimi yaxşı tanıyırdı.

Müəllim tacrübə otağından çıxandan sonra qoclar dərindən nefəs aldılar ve yene qocanı axtarmaya başladılar. Onu adab-ərkanla oturacaq etdilər. Qocanın qeyriməhdud qamtarısı ile yuxarıya stulda oturdular. Stul yumşaq ve çox rahat idi. Qocanın qıy geyiminda çəkmək istayan qoz ona daha dişqalte boxmağa başladı. Hatta qocanın yamma gəldı kimə daş paltosunun yaxalığını yuxandan aşağı, aşağıdan yuxan dülü üülayan kimi ali ila xeyli sağladı. Ali adam da gecə-gəndə vi qutardan dedi:

- Hökmən kişinin boynunda şərf olmalıdır. Eyni zamanda şərf papaq ve paltoya uyğun gəlməlidir.

Qoclardan biri dedi ki, lap çoxdan şəxdda qapeng bir şərf görmüşəm, baxım görüm oradadınsa, bu dəqiqə gətirəram. Qız şərf tapılı gəldi, onu paltonun altından qocanın boynuna doladılar. Hey gözlamədıkdıı halda, şərf daha qabaqınq formada yaxılmadı. Qocanı qıy geyminda çəkmak istayan qız şərfin yaratdığı cazibədən xeyli mamırıı qaldı. Qızlar çəp-çəlib piançərlərinin arxasına keçdilər ve qocanın oturacağı stulun qarşısında öz yerlərini tutdular. Hel telə yaxınlaşıb kəmdense intervöb gözlərinin yumalıstıra oxşayırdı.

Birinci çəkilə o qadar da çox çəkmədı. Taxminən 15-20 dəqiqədən sonra ortada dayanan qız əlini yuxarı qaldırıb "bravo" dedi. Bu, şəklin çəkilib qurtarmasına işara idi, hem de onun yuxarı alındığına bildirdi.

Qızlar vatman kağızını dəyişməya başladılar. Markazi veyri sanki saçını bu dəqiqə kosmetik qəndə dizəldıbdı gəlməşdı. Bu qız tutdu. Q. qocanı yaz, yazxud payız geyminda çəkmeli idi. Qız qocaya yaxınlaşıb avazda onun şəxsəsini bağından çıxardı. Sonra da o biri qəbatda formalaşıb şərfini çıqtılar ve paltosunu soyundurdular. Qoca qarşısındakı qızların bu hərəkatına hey bir söz demədı, doğrudan da, ela bil ki ad. Bilmak olmurdu ki, bu işdan razıdır, yoxsa narazı.

Şəqkəsim, şərfini ve paltosunu soyundan sonra qoca yerinden ağa stulda oturdu. Qocanı çəkacak esas telebə qız ona diqqətə baxmağa başladı. Hündür pencəyi, nimdaş şalvarı ve pencəyinin açıq dügmələri boyu görünən gəy rəngli köynəyi vardı. Qız ixtiyar pencəyinin qabaq dügmələrini dəyməsdı. Bir-iki addım geriyə atıb qocaya diqqətlə baxdı. Qızdan bir dilləndi ki, yox, avvəki variant yaxşıdır. Qocanı çəkacak esas telebə qız da o dəqiqə razılaşdı. Əvvəki variantda qayıdılar, qocanın pencəyinin dügmələrini açdılar.

Bu çəkilə de o qədər çox çəkmədı. Telebə qız sağ əlini gəlıq qaldırıb "bravo" dedi.

Üçüncü çəkilişdən əvvəl qızlar çay hazırladılar. Bir büfət stakana çay sütünü dökərən yanındakı mizin üstünə oyrulular. Bu qoca divanda ayrılmadı. O, çayı isə ilə-isə ilməyə başladı. Ela bil qıraylı yanıdı. Qocanın dizləri titrəyirdi.

- Ay atanıza rahmət! Bu çayı sarıdan verin, içim da. Çıxırm paralanıdı.

Qızlar da qəmqəmə sarıdan ona verdiyə ucadan dedilər ki, sen ne vaxt çay istədin, biz vermədik?

Xülasə, üçüncü çəkilişdə əvvəlki iki qız tacrübə otağından çıxıb gəldilər. Ham da müəllim tapşırıq ile, xorsnak maqazinin çəkməyinin bu qoldaş hey bir aidiyyatı yox idi.

Üçüncü çəkilişə da qoc tez ve rahat qurtardı. Qocanı bir köynək ve şalvarda çəkən qız da hamıyasa çıxıb gəldi. Tecrübə otağında bir qazak qızı, bir de telə telə rassam Vəla.

- Ha. Başlayaq? - bu sözləri qoca dedi. Yaqin dəxərdi, belka da, pul almağa telesindi. Yox, bu dəfə qoca dərinməq elamıdı ki. Belka da, pul heç onun yadına düşmürdü.

- Başlayaq, əmi! - bu sözləri da Vəla dedi. Sonra da əlavə etdi ki, bas keçib stulda eyləşsin.

Qoca ağır addımlarla hərəkat edib stula yaxınlaşdı, oturdu ve üzünü qıza tərəf tutub dedi:

- Bas sen neca çəkacəksan?

- Əmi, mənimki sağ asandır. Bini şərf adlanıdı, biri ali ile pencəyini dülıdeyi, biri köynəyini düzəldirdi. Man sani çıtqaq çəkacəyəm.

- Ne dəxərsən, ey qızım? Man soyunmalıyam? - qoca taəccüblə dedi.

- Narahat olma, man özüm sani soyunduracağam, - bunu da Vəla yetirdi.

Davamı sahifə 21-da

NATURA

hekayə

(Əvvəli səhifə 20-də)

Bu sözlərdən sonra Vəfa qocaya yaxınlaşdı. Əli ilə əvvəlcə atasının başını sığallayan kimi qocanın başını sığalladı, sonra əllərini onun üzündə gəzdirib nəvaziş göstərdi. Nəvazişin arxasınca dili ilə əzizləməyə başladı:

- Əmi, sən necə də nurani bir adamsan. Bax, üz-gözündən nur tökülür. Sən ömründə heç kəsə pislik eləməmisən. Bilirsən niyə? Çünki əlindən pislik gəlmir. Sən o qədər xeyirxah adamsan ki, indi sənin doğulduğun, böyüdüyün kənddə başına and içirlər.

Qoca dillənmirdi, şoka düşmüş adamlar kimi gözlərini Vəfanın gözlərinə dikmişdi. Bu hadisənin necə qurtaracağını özü də bilmirdi. Heç danışmaq heyində də deyildi. Ən qəribəsi bu idi ki, xəyalına da heç nə gəlmirdi.

Vəfa yavaş-yavaş qocanın köynəyinin düymələrini açmağa başladı. Əvvəlcə yuxarıdakı, sonra da ikinci düyməni açmaq istədi. İkinci düyməni açanda qoca əlləri ilə Vəfanın əllərini tutub dedi:

- Yox, qızım, olmaz! Mən soyunmaq istəmirəm.

Vəfa bu sözlərə o qədər də əhəmiyyət verməyib əllərini qocanın əlindən yavaşca sürüşdürüb çıxardı və üçüncü düyməni açmağa səy göstərdi. Qoca yenə Vəfanın əllərini tutub onun üçüncü düyməni açmasına imkan vermədi. Sonra da dedi:

- Yox, qızım, olmaz, ayıbdır! Sən də məni elə bu cür çək, qurtarsın getsin.

Vəfa bir az titrək səslə dilləndi:

- Nə danışırsan, əmi! Elə şey olar? Mənim diplom işimin mövzusu çılpaq kişi şəklidir. Adı da elə belə olacaq: "Çılpaq kişi".

Vəfa bir az geri çəkilib gülümsər gözləri ilə qocaya baxıb dedi:

- Əmi, bilirsən qardaşım səni nə qədər tərifləyir? Hər gün mənə səndən danışır. Deyir ki, o qədər sadə insandır, adam ondan nümunə götürmək istəyir. Bir də sən mənim atama oxşayırsan. Üz, qaş, göz, alın - hamısı atamda necədir, səndə də elədir. Amma o, üç il olar ki, rəhmətə gedib. Lap istəsən səni əmimlə tanış edərəm. Çox söhbətcil adamdır. Sən də hərdən bizə gələrsən, əmim də çayxanaya gələr. Dostlaşarsınız. Ona da yaxşı olar, sənə də.

Vəfa bu sözləri deyə-deyə qocaya yaxınlaşdı. Ədəb-ərkanla o biri düymələri açmağa başladı. Qoca qızın atasının rəhmətə getdiyini eşidib xeyli sakitləşmişdi, heç nə demirdi. Amma gözləri Vəfada idi.

Vəfa bütün düymələri açıb qurtardı. Qocanın qollarını qaldırıb köynəyi tamam çıxardı və divanın üzərinə qoydu. Hər şeyin qaydasında olduğunu düşünən Vəfa fürsəti fövtə verməmək üçün cəld geri qayıtdı. Yavaşca əl aparıb qocanın alt köynəyini çıxarmaq istədi və dedi:

- Narahat olma, əmi! Otaq istidir. Xəstələnməyəcəksən.

Vəfa bu sözləri deyə-deyə qocanın alt köynəyini yuxarı qaldırmaq istəyirdi ki, qoca bərk-bərk onun əlindən tutdu:

- Yox, qızım, olmaz!

- Nə danışırsan, əmi! Beş-on dəqiqəyə çəkib qurtaracağam, narahat olma!

- Yox, qızım, qəti olmaz!

- Axı niyə olmur ki, əmi!

- Bilirsən, qızım, birincisi, sən mənim qızım yerindəsən, ona görə olmaz.

Vəfa fürsəti ötürməyib dedi:

- Bəli, mən sənin qızın yerində yox, elə qızınam. Qız öz atasının qulluğunda dura bilməz?

- Yox, qızım, ikincisi də mən arvadımla bir yerdə olanda da heç vaxt soyunmamışam.

Vəfa qəhqəhə çəkərək dilləndi:

- Vay səni, əmi! Sən nə qəribə adamsan? Mən bundan sonra da səndən əl çəkməyəcəyəm. Qardaşıma deyəcəyəm ki, səni hökmən bizə qonaq gətirsin.

Vəfa bu sözləri deyə-deyə yenə qocanın başını sığallayır, üzünü tumarlayır, üz-gözündən öpürdü. Hətta bəzən də qəşş edə-edə qocanın başını döşlərinin arasına sıxırdı. Qoca elə bil məst olmuşdu və bir də gördü ki, alt köynəyi də yoxdur. Bədəninin yuxarı hissəsi tam çılpaqdır.

Vəfa xeyli rahatlandı. Sonra bir az aşağı əyilib qocanın şalvarının kəmərini açmağa başladı. Bunu hiss edən qoca Vəfanın əlini o tərəfə itələyib əsəbi şəkildə dilləndi:

- Nə edirsən, qızım?! Qətiyyən ola bilməz!

Vəfa geri çəkilib qocanın stulunun yanında qoyulmuş və əllə taxtadan düzəldilmiş balaca bir stulda oturdu və ağlamağa başladı. Vəfa ağlaya-ağlaya deyirdi:

- Mən neçə ildir ki, nişanlıyam. Qayınanam da deyir ki, neynirsən bu kolleci? Çıx gəl, toyunuzu edək, qurtarsın getsin. Gəlib kolxozda işləsən Şamama Həsənova kimi Sosialist Əməyi Qəhrəmanı olarsan. Rəssam olub nə edəcəksən, dünyanın gözünü çıxardacaqsan? Mən də deyirəm ki, azca qalıb, qoy diplomu müdafiə edim, gələcəyəm. İndi əgər bu iş baş tutmasa, sizi çılpaq çəkə bilməsəm, kolleci qurtara bilməyəcəyəm. Kəsilsəm də, gələn il buraya ayaq qoymağa imkan verməyəcəklər.

Vəfa yenə hıçqırmağa başladı, elə bil barmağını kəsmişdilər. Yadına kollecdə keçirdiyi ağır günlər düşür, qardaşı ilə birgə yatmadığı gecələri xatırlayır və ağlamağa davam edirdi:

- Əmi, mən bədbəxt bir adamam. Atam da sağ deyil ki, barı mənim qayğıma qalsın. Kolleci qurtarmasam, hamı mənə tənə ilə baxacaq. Niyə bu dünyanın bütün dərdi-səri mənim üstümə tökülməlidi? Əmi, bircə anlıq təsəvvür elə ki, mən elə sənin qızınam. Bəs ata öz qızına kömək eləməz?

Vəfa bu sözləri deyib ağlaya-ağlaya əlləri ilə üzünü örtdü. Elə bir dünya başına fırlandı. Daha nə edəcəyi barədə heç nə düşünə bilmədi. Vəfa qəfil hiss etdi ki, qoca qurumuş əlləri ilə Vəfanın əllərini üzündən ayırmaq istəyir. Vəfa buna mane olmadı. Düşündü ki, bəlkə, üzünü bürüyən göz yaşları onu rəhmə gətirər. Elə ki qızın üzü-gözü aydınca göründü, qoca titrək səslə dedi:

- Qızım, ağlama, mən səni başa düşürəm, gəl çək!

Ankara
21 iyul 2016

Kaspi.- 2017.- 16 dekabr.- S. 20-21.

WWW.KASPI.AZ 16 dekabr 2017